*9 oktyabr Ümumdünya Poçt İşçiləri Günüdür*

# Filial əhaliyə keyfiyyətli poçt xidmətini təmin edir



Son illər respublikamızda uğurla həyata keçirilən iqtisadi islahatlar bütün sahələrin sürətli, dinamik inkişafına güclü təkan vermişdir. Respublikamız bu gün iqtisadi inkişaf tempinə görə dünyada lider mövqedədir. Azərbaycanda ən yüksək inkişaf tempinə malik olan sahələrdən biri də rabitə sektorudur. Ulu öndərimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışı ilə bu sahədə ciddi islahatlar, tərəqqi dönəmi başladı. Təməli ulu öndər tərəfindən qoyulmuş rabitə islahatları Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq uğurla həyata keçirilir. Bu sahəyə ölkə başçısının xüsusi diqqət və qayğısının nəticəsidir ki, respublikamız yüksək texnologiyalar sahəsində ən qabaqcıl ölkələrin sırasındadır, kosmik sənayeyə malik ölkədir.

Bu gün ölkəmizin poçt rabitəsi də müasir dünya standartlarına uyğunlaşdırılmışdır. Azərbaycan poçtu öz inkişaf səviyyəsinə görə dünya poçt aləmində liderdir. 1993-cü ildən Ümumdünya Poçt İttifaqının üzvü olan ölkə poçtu beynəlxalq əlaqələrini genişləndirir, yeni uğurlara imza atır. 9 oktyabrda – Poçt İşçiləri Günü 1874-cü ildə 22 ölkənin nümayəndələrinin iştirakı ilə İsveçrə Krallığının paytaxtı Bern şəhərində Beynəlxalq Poçt Konqresində təsis edilmişdir. Həmin gündən etibarən 9 oktyabr – Ümumdünya Poçt İttifaqının yarandığı gün kimi və Azərbaycanda bu peşə bayramı bütün poçt işçiləri tərəfindən böyük təntənə ilə qeyd olunur.

Azərbaycan poçtunun inkişaf edib bugünkü səviyyəyə çatmasında rabitə və yüksək texnologiyalar naziri, akademik Əli Abbasovun xidmətləri böyükdür. Onun rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü işlər bu sektorda daha yüksək nəticələrin qazanılmasına imkan vermişdir. Bu səbəbdəndir ki, respublikamızın poçt sektoru son bir neçə ildir ki, keyfiyyətin yaxşılaşdırılmasına görə Ümumdünya Poçt İttifaqı tərəfindən qızıl səviyyəli sertifikata layiq görülür, beynəlxalq nüfuzu yüksəlir, iqtisadi göstəriciləri ilbəil artır. Öz fəaliyyətini, xidmət çeşidlərini genişləndirən poçt sektorunda ənənəvi xidmətlərlə yanaşı, qeyri-ənənəvi xidmətlər uğurla həyata keçirilir. Bu gün istər Bakıda, istərsə də ayrı-ayrı bölgələrdə müasir standartlara uyğun inşa olunan və ya əsaslı şəkildə təmir edilən filial və poçt şöbələrinin tikilib istifadəyə verilməsi zamanın tələbindən irəli gələn yeni xidmət növlərinin göstərilməsinə imkan verir. Yaradılan bu şəraitdən istifadə edən rayon poçt filialının kollektivi əhaliyə keyfiyyətli poçt-rabitə xidməti göstərir, onların poçtumuzun xidmətindən yararlanmasını təmin edir.




Yardımlı Poçt Filialı 17 kənd və bir müştəri xidmətləri şöbəsi ilə əhaliyə xidmət göstərir. Bu şöbələrin 5-i hökumət portalına (HÖP) qoşularaq kənd yerlərində əhaliyə bank maliyyə xidmətlərinin yüksək səviyyədə icrasını təklif edir. İlin sonuna qədər daha iki kənd şöbəsinin hökumət ödəniş portalına qoşulması nəzərdə tutulur. Poçt şöbəsinin on birinə bank maliyyə xidmətləri göstərmək üçün lisenziya verilmişdir. Filial 9 aylıq plan-proqnoz tapşırıqları 102 faiz icra etmişdir.

Qiymətli kağız və banderollar üzrə 115 faiz, telefon abunə haqlarının yığımı 135 faiz, kommunal ödənişlərin toplanmasında 110 faiz, teleqraf rabitəsindən 156 faiz, sürətli pul köçürmələrindən (Zolotaya Korona, Kontakt, Western-Union və s.) 212 faiz, xarici valyutanın alışı və satışı 201 faiz təşkil etmişdir. Görülən işlərdə "Azərpoçt" MMC-nin baş direktoru Qəmbər Bəybalayevin və rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmovun diqqət-qayğısını daim hiss edirik. 9 oktyabr ÜPİ-nin yaranmasının 141 illiyi və qarşıdan gələn 1 noyabr parlament seçkiləri ilə bağlı bütün şöbələrdə təmizlik işləri aparılmış, inzibati binalar estetik vəziyyətə gətirilmişdir. Filial DYP-nin cərimələrinin, vergi rüsumlarının qəbulunu da həyata keçirir. Eyni zamanda rayonumuzda fəaliyyət göstərən 30 bələdiyyənin 29-u üçün bank hesabları açılmış və bu istiqamətdə işləri daha da gücləndirmişdir.

Fürsətdən istifadə edib 9 oktyabr – ÜPİ-nin 141 illik yubileyi münasibətilə bütün poçt işçilərini təbrik edirəm.

**Anar ƏLƏKBƏRLİ,**
**Yardımlı Poçt Filialının rəisi.**